“Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir”
Cəlil Məmmədquluzadə



# ÇIRAQ

14 avqust-14 sentyabr 2016-cı il № 8 (242) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

## RƏSMİ XRONİKA

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrabın etimadnaməsini qəbul edib. Avqustun 16-da isə Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bert Skufsun etimadnaməsini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Rio-de Janeyro Olimpiadasında qızıl medal qazanmış taekvondoçumuz Radik İsayevə telefonla zəng edib. Prezident İlham Əliyev bildirib ki, Radik İsayevin bu inamlı qələbəsi bütün Azərbaycan xalqını sevindirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Yaponiya Xarici İşlər Nazirliyinin parlamentar vitse-naziri Motome Takisavanı qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Qaz İxrac edən Ölkələrin Forumunun baş katibi Seyid Məhəmməd Hüseyn Adelini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb. Qonağı salamlayan Prezident İlham ƏLİYEV dedi:-Xoş gəlmisiniz. Sizi görməyə şadam. Siz Azərbaycanda tez-tez olmusunuz. İndi Baş nazir kimi səfər edirsiniz. Mən çox şadam. Əminəm ki, bu səfər gələcəkdə münasibətlərimizin möhkəmlənməsinə xidmət edəcək. Münasibətimiz tarixə, qardaşlığa, xalqlarımızın yaxın qonşuluğuna əsaslanır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda «Şahdəniz-2» layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasında mübarizə aparacaq Azərbaycan yığma komandalarının üzvləri ilə görüşü olub.

Bakıda, Milli Gimnastika Arenasında 42-ci Ümumdünya Şahmat Olimpiadasının təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlyumjinov və təşkilatın digər nümayəndələri, şahmat üzrə dünya çempionları, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlyumjinov ilə görüşüblər. Görüşdə Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə təşkil olunduğu bildirildi.

Sentyabrın 2-də «Baku Crystal Hall»da 42-ci Ümumdünya Şahmat Olimpiadasının birinci turuna start verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallı rayonuna səfərə gəlib. Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Masallı şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıda Bayraq Meydanının və Azərbaycan Dövlət Rəmzləri Muzeyinin, səfər çərçivəsində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN həyat» kompleksinin, 640 yerlik uşaq-incəsənət məktəbinin, Masallı şəhərinin içməli su təchizatı layihəsinin (şəhər su və kanalizasiya sisteminin), Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Biləsuvar rayonuna səfərə gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Biləsuvarda 132 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının və səfəri çərçivəsində uzunluğu 6 kilometr olan Əsgərabad-Muğan-Çaylı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Biləsuvar rayonuna səfərini başa çatdıraraq Salyan rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə Ulu Öndərin şəhərin mərkəzindəki Heydər Əliyev parkında ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.



Sentyabrın 3-də Salyan şəhərinə Şirvan-Muğan magistral kəmərindən çəkilmiş yeni içməli su xəttinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyan rayonuna səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin, Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak edib.

Sentyabrın 3-də Salyanın Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən, Kür çayı üzərində uzunluğu 201 metr, eni 14,5 metr olan yeni körpü istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev körpünün açılış mərasimində iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyana səfəri çərçivəsində Kürsəngi kəndindəki pambıq sahələrinə baxıb. Dövlətimizin başçısı ölkəmizdə pambıqçılığın zəngin ənənələrinin bərpa edilməsi və bu sahənin əvvəlki şöhrətinin qaytarılması üçün müvafiq tapşırıqlar verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də İsveçrə Yəhudi İcmaları Federasiyasının prezidenti Herbert Vinterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Xətai rayonundakı 245 nömrəli tam orta məktəbin yeni inşa edilən tədris korpusunda və 265 nömrəli tam orta məktəbin binasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakının Nizami rayonundakı 229 və 109 nömrəli tam orta məktəblərində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Bakının Nəsimi rayonundakı şəhid Abdulla Rəhimov adına 247 nömrəli tam orta məktəbin əsaslı yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də «DP World» şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfərə gəlib. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaza səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak edib, şəhərin mərkəzində yerləşən Nikah evinin binası ilə, Bayraq Meydanında və Bayraq Muzeyində yaradılan şəraitlə tanış olub, Xaçmaz rayonunda Xudat-Yalama-Zuxuloba avtomobil yolunun açılışını edib, sonra Xudat şəhərinin bir qrup sakini ilə görüşüb, Yalama qəsəbəsindəki Heydər Əliyev adına parkda yaradılan şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfəri çərçivəsində "Yalama" Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaza səfərini başa çatdıraraq Qusara gəlib. Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də əsaslı şəkildə yenidən qurulan Qusar-İmamqulukənd-Quxuroba avtomobil yolunun asılışında iştirak edib, Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışını edib. Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi başa çatıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də bu münasibətlə keçirilən mərasimdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Avropa Parlamentinin vitse-prezidenti Riçard Çarneskini qəbul edib.

AZƏTAC

# TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR

## (Təhsil işçilərinin sentyabr konfransından qeydlər)

Ulu Öndərimiz Heydər Əliyevin «Təhsil millətin gələcəyidir» sözləri məşhur deyimə çevrilmişdir. Bəli, bu gün təhsili möhkəm özüllər üzərində qurulmuş ölkələr dünya meydanında yüksək səviyyəyə çatmışlar.

Ölkəmizdə də təhsilə dövlət tərəfindən yüksək səviyyəli qayğı göstərilir. Məhz bu qayğı nəticəsində ölkə təhsili dinamik inkişafa nail olmuşdur. Ölkəmizdə gedən bu inkişafın rayonumuzun təhsilinə də böyük təsiri olmuşdur.

Bəs Siyəzən rayonunda 2015-2016-cı dərs ilinin yekunları necə olmuşdur? Qarşıda duran vəzifələr, həllini gözləyən məsələlə» hansılardır? Bütün bu suallar ətrafında Siyəzən rayon təhsil işçilərinin sentyabr konfransında geniş danışıldı.

Əvvəlcə Konfrans iştirakçıları qarşısında 2015-2016-cı dərs ilinin yekunları barədə hesabat məruzəsi ilə çıxış edən rayon təhsil şöbəsinin müdiri Rəfail Hacıyevin çıxışı dinlənildi. Natiq vurğuladı ki, rayonun bütün təhsil müəssisələrində təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, kurikulum islahatı, dünyəvi xarakter daşıması, məzmununun müasirləşdirilməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin təşkili, ölkə üçün layiqli vətəndaşların yetişdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

2015-2016-cı tədris ilində həyata keçirilmiş əsas tədbirlərdən biri də təhsildə əsas sima olan müəllimlərlə işin aparılmasıdır. Müəllim peşəsinin nüfuzunun artırılması, qabaqcıl müəllimlərin iş təcrübəsinin yayılması, onların müxtəlif ixtisasartırma kurslarında iştirakı daim diqqət mərkəzində olmuşdur.

Müəllim əməyinin qiymətləndirilməsində əsas qayğı dövlətimiz tərəfindən həyata keçirilir. Bu baxımdan 2015-2016-cı tədris ili Siyəzən rayonu üçün uğurlu olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2015-ci il tarixli sərəncamı ilə «Ən yaxşı ümumtəhsil məktəbi» Respublika müsabiqəsində Siyəzən şəhər 6 saylı məktəb-lisey (direktor Yeganə Əliyeva) qalib hesab edilmiş, C. Cabbarlı adına Siyəzən şəhər 1 saylı tam orta məktəbin direktoru Nəcməddin Mürvətov isə möhtərəm Prezidentin 30 sentyabr 2015-ci il tarixli sərəncamı ilə «Əməkdar müəllim» fəxri adına layiq görülmüşdür. Siyəzən şəhər 2 saylı tam orta məktəbin hərbi rəhbəri Akif Quliyev FHN-nin yubiley medalı ilə təltif olunmuşdur.

Daha sonra məruzəçi rayonun təhsil müəssisələrində istedadlı şagirdlərin aşkar edilməsi, onlarla ardıcıl və səmərəli iş aparılması, müxtəlif səviyyəli müsabiqələrdə iştirakı məsələlərinə toxundu, IX və XI siniflərdə buraxılış imtahanlarının nəticəsi barədə məlumat verdi, ali məktəblərə qəbulun vəziyyətini açıqladı. Qəbulda Siyəzən şəhər məktəbləri, Balaca Həmyə, Yenikənd və Gilgilçay qəsəbə tam orta məktəbləri fərqlənmişlər. Belə ki, 2016-cı ilin qəbulunda rayonun 6 nəfər məzunu 600-dən yüksək bal toplamışdır. Siyəzən şəhər 1 saylı tam orta məktəbin məzunları Rövşən Hüseynov 690, Ülviyyə Hüseynova 638 və Kamran Babayev 603, Siyəzən şəhər 2 saylı tam orta məktəbin məzunu Sübhan Məmmədov 633. Siyəzən şəhər 6 saylı məktəb-liseyin məzunu Elgün Həmidov 627 və Zarat kənd tam orta məktəbin məzunu Nurəli Atamoğlanov 627 bal toplayaraq qəbul imtahanlarında ən yüksək nəticələr göstərmişlər.

Məruzədə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsində, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılmasında böyük əmək sərf etmiş qabaqcıl müəllimlərin adları çəkildi, rayonun məktəbdənkənar tədris müəssisələrinin fəaliyyətindən bəhs edildi, şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin yaxşılaşdırılması, mili-mənəvi dəyərlərimizə məhəbbət hisslərinin formalaşdırılması istiqamətində görülmüş işlərdən də danışıldı.

Məruzə ətrafında müzakirələrdə Siyəzən şəhər 1 saylı tam orta məktəbin direktoru, respublikanın Əməkdar müəllimi Nəcməddin Mürvətov, Siyəzən şəhər 3 saylı tam orta məktəbin direktoru Rafiq Yarıyev, 6 saylı məktəb-liseyin müəllimi Pərvin Ağayev çıxış edərək ötən dərs ilində çalışdıqları pedoqoji kollektivlərin işindən, yeni dərs ilinin qayğılarından danışdılar.

Siyəzən şəhər 2 saylı tam orta məktəbin məzunu, qəbul imtahanlarında 633 bal toplamış Sübhan Məmmədovsa öz çıxışında müəllimlərinə minnətdarlıq etdi, ali məktəbdə də yüksək bilik uğrunda əzmlə oxuyacağına söz verdi.

Siyəzən rayon müəllimlərinin ənənəvi sentyabr konfransında Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov və Təhsil Nazirliyinin məsul işçisi Fərzalı Qədirov iştirak edirdi. Onlar da müəllimləri yeni dərs ilinin başlanması münasibətilə təbrik etmiş, ölkə rəhbərliyi səviyyəsində təhsilə göstərilən qayğıdan danışmışlar.

Tədbirin sonunda rayonun qabaqcıl müəllimlərindən bir qrupuna və ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış tələbələrə Fəxri-fərmanlar verilmişdir.

Sonda Konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

**Reyhan MURADOVA**

# “BƏLƏDİYYƏ” REFERENDUM TƏŞVİQAT QRUPUNUN SİYƏZƏN SEÇİCİLƏRİ İLƏ GÖRÜŞÜ



"Bələdiyyə" referendum təşviqat qrupu Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar rayon ictimaiyyəti ilə görüş keçirmişdir.

YAP fəallarının, ictimaiyyət nümayəndələrinin, ziyalıların iştirak etdiyi müşavirəni YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov açmışdır. O, 2016-cı il sentyabrın 26-na təyin edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) barədə məlumat verib, tədbirin maarifləndirmə məqsədi daşıdığını söylədi.

Millət vəkili Tahir Süleymanov Azərbaycanda bütün sahələrdə inkişafın olduğunu vurğulayaraq azad və ədalətli seçkilərin keçirilməsində dövlət başçısının ciddi mövqeyindən, konkret siyasi iradə nümayiş etdirməsindən danışıb. Həmçinin o, bildirib ki, ənənəvi hal alan belə maarifləndirici görüş yerlərdə seçki komissiyalarının işinin düzgün qurulmasında mühüm rol oynayır. Seçki prosesinin keçirilməsi səviyyəsi ötən illər ərzində olduqca yüksəlibdir.



Millət vəkili Azərbaycan Respublikasının Konstitusiyasında nəzədə tutulmuş dəyişikliklərin zamanın tələbi oldğunu vurğulamış, ayrı-ayrı müddəaların izahını verməklə zəruriliyini qeyd etmişdir.

Sonda o, ölkədə keçiriləcək qarşıdakı referendumun da yüksək səviyyədə keçəcəyinə əminliyini bildirmişdir.

**“ÇIRAQ”**

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2016-cı ilin sentyabr ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1 | Sədan kəndi, kənd tam orta məktəbin binası | 02.09.2016 | 15:00 |
| 2 | Tuğay kəndi, kənd ümumi orta məktəbin binası | 09.09.2016 | 15:00 |
| 3 | Qalaşıxı kəndi, açıq havada | 16.09.2016 | 15:00 |
| 4 | Dağ Quşçu kəndi, kənd klubunun binası | 23.09.2016 | 15:00 |
| 5 | Eynibulaq kəndi, kənd tam orta məktəbin binası | 30.09.2016 | 15:00 |

# Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Mirzəyev Nizami Rza oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Qurbanov Faiq Hacıqulu oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Əlizadə Alim Vidadi oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 11. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 12. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 13. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 14. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 15. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# İNKİŞAF GÖZ ÖNÜNDƏDİR

Ölkəmizdə böyük işlər görülür. Şəhərlərimiz gözəlləşir, abad küçələrimizin sayı durmadan artır. Bakımız öz gözəlliyi ilə bütün dünyanın diqqətini çəkir. Bunu bura axışan və ildən-ilə artan turistlərin sayı ilə də müəyyən etmək olar.

Eləcə də rayon mərkəzləri. Siyəzənimiz də bu mənada istisna deyil. Son illər xeyli gözəlləşib. Əhalinin istirahəti üçün çoxlu sayda işlər görülüb. Amma unutmayaq ki, əsas məsələlərdən biri də yaradılanların qorunub saxlanılmasıdır.

Şəhərimizdə yollar asfaltlaşdırılır, yeni səkilər salınır, küçələr işıqlandırılır, yeni, yaraşıqlı inzibati binalar tikilir, məktəblər, mədəniyyət ocaqları istifadəyə verilir və s. Bir sözlə, abadlıq, tikinti-quruculuq işləri ardıcıl həyata keçirilir. Əlbəttə, bütün bunlar biz siyəzənlilər üçündür. Çalışmalıyıq ki, şəhərimiz daha gözəl olsun.

Neqativ hallar varsa, bunlardan yaxa qurtarmalıyıq, hökmən. Bəs necə? Yalnız tələbkarlığımızı artırmaqla. Özümüzə və digərlərinə qarşı tələbkarlığımızı artırmaqla. Tələbkarlığın necə olması barədə öyrənmək üçünsə böyük məktəbimiz var: Heydər Əliyev-İlham Əliyev məktəbi.

Yeri gəlmişkən, şəhər üzrə nümayəndəliyin və Siyəzən bələdiyyəsinin stimul yaradan müxtəlif həvəsləndirici üsulları ilə məhəllələrarası və yaxud küçələrarası yarışları təşkil edə bilərik. Nəticə kimi də daha çox nümunəvi olan yerlərdə yeni istirahət məkanlarının salınmasını əsaslandıra bilərik. Belə olan halda düşünürük ki, digərləri də narazı qalmaq əvəzinə yəqin ki, öz küçələrində yersiz qazıntı işlərinin aparılmasına, natəmizlik yaradılmasına son qoyarlar. Əlbəttə, bu, sadəcə, bir təklifdir.

Nə qədər maneələrlə üzləşsək də, bəzən ləngllik göstərsək də ümumi fonda inkişafı görməmək böyük qəbahət olardı. Doğrudan da, Möhtərəm Prezidentimiz İlham Əliyevin şəxsi nəzarəti, diqqəti və qayğısı nəticəsində addım-addım, ardıcıl olaraq hər bir sahədə tərəqqiyə çatmağımız göz önündədir. Hörmətli Prezidentimizin tələbləri ilə ayaqlaşmağı bacarmalıyıq. Bu məqsədə isə yalnız güclü kadr potensialı ilə çata bilərik.

**İlyas İLYASOV.**

# FƏAL İŞTİRAK EDƏCƏKLƏR

Hər bir seçki rayonumuzda mütəşəkkil baş tutması ilə yadda qalıbdır. Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətə dəstək verən siyəzənlilər hər bir seçkidə fəallıq göstəriblər. Qarşıdan isə referendum gəlir.

Konstitusiyaya dəyişiklik adətən bir neçə zərurətdən irəli gəlir. Bu dəyişiklik dövlət idarəetmə orqanlarının təkmilləşdirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi, insan hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunması məqsədilə edilir. Azərbaycanın referendum keçirilməsi ilə bağlı təcrübəsi var.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 26 iyul tarixli sərəncamı ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş referenduma çıxarılacaq dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə diqqəti cəlb edir.

Referendum Aktına əsasən, Konstitusiyanın 23 maddəsinə əlavə və düzəlişlərin edilməsi, habelə yeni 6 maddənin əlavə edilməsi nəzərdə tutulur.

Hazırkı Konstitusiya islahatı ölkə həyatının ən müxtəlif sahələrini əhatə edir. Təhlükəsizlik və müdafiə, insan hüquq və azadlıqlarının qorunması və ondan sui-istifadə hallarına yol verilməməsi, xüsusi mülkiyyət ilə bağlı sosial öhdəliklər, vətəndaşın informasiya təhlükəsizliyinin etibarlı təminatı, vətəndaşın seçmək və seçilmək hüquqlarının genişləndirilməsi, dövlət idarəetmə strukturlarının təkmilləşdirilməsi, bələdiyyələrin məsuliyyətinin artırılması və digər vacib məsələlərin tənzimlənməsinə şamil edilməsi nəzərdə tutulan dəyişikliklər bu qəbildəndir.

Əminik ki, seçicilər onların azad və sərbəst şəkildə səs vermələri üçün yaradılan hərtərəfli imkanlardan bəhrələnməklə referendumda fəal iştirak edəcək, öz konstitusion hüquqlarını reallaşdıracaqlar.

**"ÇIRAQ"**

# REFERENDUM HƏYATIN TƏLƏBİDİR

Sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ölkəmizin ictimi-siyasi həyatında mühüm hadisədir. Məntəqəmizdə referenduma ciddi hazırlıq işləri görülür.

Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsinə çıxarılan hissələrinin müqayisəli təqdimatı seçicilərə paylanıb. Seçici siyahıları, çağırış plakatları seçki məntəqəsinin girişində, nəzərəçarpacaq yerlərdə asılıb. Hazırda seçicilərə paylanılması üçün səsvermənin keçirilmə tarixi, vaxtı və yeri (ünvanı) barədə bildirişlər yazılır. Tam əminliklə deyə bilərik ki, referenduma hazırlıq işləri seçki qanunvericiliyinin tələblərinə uyğun aparılır.

Ötən illərin təcrübəsinə əsaslanıb qətiyyətlə deyə bilərik ki, ölkəmizdə aparılan uğurlu siyasət nəticəsində bərqərar olunmuş dayanıqlı ictimai-siyasi sabitlik seçkilərin azad, ədalətli və şəffaf keçirilməsinə şərait yaradır. Azərbaycanda seçki praktikası ildən-ilə daha da təkmilləşdirilir.

Seçkinin müvəffəqiyyətlə keçirilməsinin ən vacib şərti ondan ibarətdir ki, ölkəmizdə sabitlik mövcuddur. Seçicilər arasında ruh yüksəkliyi hökm sürür.

Hörmətli redaksiya. Fürsətdən istifadə edərək seçiciləri həmişə olduğu kimi, yenə də bu ümumxalq səsverməsində də fəal iştirak etməyə çağırıram.

**Rafiq YARIYEV,**
**54 saylı Şabran-Siyəzən seçki dairəsinin 48 saylı məntəqə seçki komissiyasının sədri.**

# 26 SENTYABR ÜMUMXALQ SƏSVERMƏSİ (REFERENDUM) GÜNÜDÜR

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Konstitusiyada dəyişikliklər edilməsi məqsədilə 2016-cı il sentyabrın 26-na ümumxalq səsverməsi (referendum) təyin edilmişdir.

Prezident İlham Əliyev özünün konstitusion hüququndan istifadə edərək Konstitusiyada dəyişikliklər edilməsi üçün təkliflərini verib. Bu təkliflər artıq çap edilib və seçicilərimiz həmin təkliflərlə tanış olmağa başlayıblar. Bir məntəqə sədri kimi deyə bilərəm ki, bu məlumatların yerlərdə hər bir seçiciyə çatdırılması təmin edilmişdir.

Səsverməyə çıxarılan məsələlər Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının konstitusion təminatının gücləndirilməsinə xidmət edir. Hamı bilir ki, bu təkliflər ölkəmizdə daha çevik idarəetməni təmin etmək üçün irəli sürülüb. Bunda məqsəd idarəetmədə insanların iştirakının genişləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının daha ciddi təmin olunmasıdır.

Məntəqəmizdə referendumun yüksək səviyyədə təşkili və vətəndaşların seçkilərdə iştirakı üçün hər cür şərait yaradılıb. İnanırıq ki, seçicilərimiz ötən seçkilərdə olduğu kimi, qarşıdan gələn referendumda da fəal iştirak edərək Konstitusiyaya təklif olunan dəyişikliklərə münasibət bildirəcəklər.

**Namus AĞAYEV,**
**54 saylı Şabran-Siyəzən seçki dairəsi 50 saylı məntəqə seçki komissiyasının sədri.**

# KONSTİTUSİYA İSLAHATLARI ZAMANIN TƏLƏBİDİR

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının layihəsi ümummilli lider Heydər Əliyevin sədrliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyası fundamental bir sənəd kimi demokratik inkişaf, hüquqi dövlətçilik və insan haqları sahəsində mütərəqqi dünya təcrübəsinin başlıca nailiyyətlərini özündə əks etdirir. Konstitusiyamızda müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquqlarının və azadlıqlarının təminatları müəyyən edilmişdir.

Hüququn müasir inkişaf tendensiyaları və ölkəmizin Avropa ailəsinə fəal inteqrasiyası Azərbaycanda konstitusiya islahatlarının aparılmasını, Əsas Qanunun daha da təkmilləşdirilməsini zəruri etmişdir. Konstitusiya bir dinamik sənəd kimi zamanın xüsusiyyətlərinə və tələblərinə uyğun olaraq vaxtaşırı əlavə və dəyişikliklər etməklə təkmilləşdirilir. Bu baxımdan 24 avqust 2002-ci ildə və 18 mart 2009-cu ildə referendum keçirilmiş Azərbaycan Respublikası Konstitusiyasına bir sıra əlavə və dyişikliklər edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 26 iyul tarixli sərəncamı ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş referenduma çıxarılacaq dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə diqqəti cəlb edir. «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Referendum Aktı Konstitusiyanın 23 maddəsində 34 dəyişikliklərin və əlavələrin edilməsini, həmçinin Konstitusiyaya 6 yeni maddənin əlavə edilməsini nəzərdə tutur.

Qeyd etmək istərdim ki, təklif olunan dəyişikliklər arasında təhlükəsizlik və müdafiə məsələlərinin təsbit olunduğu Konstitusiyanın 9-cu maddəsinin I hissəsinin aşağıdakı redaksiyada verilməsi mühüm əhəmiyyət kəsb edir: «Azərbaycan Respublikası öz təhlükəsizliyi və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.»

Konstitusiyanın 24-cü maddəsinə «İnsan ləyaqəti qorunur və ona hörmət edilir» məzmunlu I hissənin, habelə III hissəyə «Hüquqlardan sui-istifadəyə yol verilmir» məzmunlu cümlənin əlavə edilməsi təklif olunmuşdur. Konstitusiyanın 25-ci maddəsinə təklif olunan dəyişikliklər hamının qanun qarşısında bərabərliyi prinsipinin daha da möhkəmləndirilməsinə etibarlı hüquqi zəmanət yaradır. Konstitusiyanın 29-cu maddəsinə aşağıdakı məzmunda V və VII hissələrin əlavə edilməsi nəzərdə tutulmuşdur: «Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur», «Sosial ədalət və torpaqdan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüquqi qanunla məhdudlaşdırıla bilər». Konstitusiyanın 32-ci maddəsinə təklif olunan VI, VII və VIII hissələr mahiyyət etibarı ilə müasir dövrün reallıqlarından irəli gəlir, bu sahədə mövcud hüquqi boşluğun aradan qaldırılması baxımından əhəmiyyətlidir, fərdi məlumatların dairəsi, onların emalı, toplanması, ötürülməsi. istifadəsi və mühafizəsi şərtlərini müəyyən edir, insanların informasiya təhlükəsizliyi ilə bağlı hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən neqativ halların aradan qaldırılmasına və hər kəsin şəxsi toxunulmazlıq hüququnun daha səmərəli təmin edilməsinə yönəlmişdir.

Referendum Aktı layihəsində təklif olunan dəyişikliklərdən biri də əmək müqaviləsi əsasında işləyənlərin hüquqlarının daha effektiv müdafiəsini özündə əks etdirir. Bu məqsədlə 36-cı maddəyə edilən dəyişikliyə lokaut anlayışı əlavə edilmişdir. Maddəyə əlavə edilməsi təklif olunan IV hissəyə görə qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır. Yəni, əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər.

Referendum Aktı layihəsində təklif olunan Konstitusiyanın 47-ci maddəsinin III hissəsində «sosial» sözündən sonra «və hər hansı digər meyara əsaslanan» sözlərinin əlavə edilməsi, 49-cu maddəsinin II hissəsində «etməklə» sözündən sonra, «ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə», sözlərinin əlavə edilməsi, 53-cü maddənin I hissəsində «heç bir halda» sözlərinin çıxarılması və «vətəndaşlığından» sözündən sonra «(onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla)» sözlərinin əlavə edilməsi, 56-cı maddənin III hissəsində «seçkilərdə iştirak etmək» sözlərinin «seçilmək» sözü ilə əvəz edilməsi, 57-ci maddənin I hissəsinə «Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər.» məzmunda ikinci cümlənin əlavə edilməsi də mütərəqqi xarakter daşıyan dəyişikliklərdəndir, vətəndaşların hüquqlarının daha səmərəli müdafiəsinə xidmət edəcəkdir.

Referendum Aktı layihəsində diqqəti cəlb edən dəyişikliklərdən biri də Konstitusiyaya «Azərbaycan Respublikası Milli Məclisinin buraxılması» adlı iki hissədən ibarət $98^1$-ci maddənin əlavə edilməsi ilə bağlıdır. Bu maddənin I hissəsinə görə Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra qanunla müəyyən edilmiş müddətdə təyin edilmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrin aradan qaldırıla bilməyən səbəblər üzündən icra edilmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Rferendum Aktı layihəsinə əlavə edilmiş yeni $103^1$, $106^1$, $108^1$, $110^1$-ci maddələr dövlət idarəetmə strukturlarının optimal təkmilləşdirilməsi, onların səlahiyyətlərinin dəqiqləşdirilməsi və son nəticədə daha səmərəli idarəetmə mexanizmlərinin tələblərinə cavab verməsinə yönəlmişdir. Həmin dəyişikliklərə əsasən, ölkəmizin siyasi idarəçilik sistemində ilk dəfə olaraq Azərbaycan Respublikasının birinci vitse-prezidenti və vitse-prezidentləri vəzifələrinin təsis edilməsi, Azərbaycan Respublikasının vitse-prezidentlərinin şəxsiyyətinin toxunulmazlığı, habelə Azərbaycan Respublikasınınbirinci vitse-prezidentinin təminatı məsələləri ilə bağlı müddəalar nəzərdə tutulmuşdur. Bu yüksək dövlət postlarına təyinatın Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilməsi, eyni zamanda Azərbaycan Respublikasının Prezidentinin dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilməsi konstitusion norma olaraq təsbit olunmuşdur. Bundan başqa bələdiyyələrin məsuliyyəti adlanan yeni $146^1$-ci maddədə «Bələdiyyələrin, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanunazidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar» maddəsi təsbit olunmuşdur.

**Şəmşad ƏLİYEV,**
**Siyəzən RİH başçısının aparatında Hüquq şöbəsinin müdiri.**

# «SÜLH AYLIĞI» KEÇİRİLİR

21 sentyabr tarixi bütün dünya ölkələrində «Beynəlxalq Sülh Günü» kimi qeyd olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın 4.10-cu bəndində əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyinin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

Təqdirəlayiq haldır ki, respublikamızda hər il «Beynəlxalq Sülh Günü»nün ərəfəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq 21 avqust-21 sentyabr tarixlərində «Sülh aylığı» elan edilərək müxtəlif tədbirlər təşkil olunur və həyata keçirilir.

Siyəzən Rayon İcra Hakimiyyətinin Tədbirlər Planına uyğun olaraq aidiyyəti idarə, müəssisə və təşkilatlarda əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə görüşlər keçiriləcəkdir.

**Şəmşad ƏLİYEV.**

## KONFRANS KEÇİRİLİB

26 avquşt 2016-cı il tarixdə Gənclər Mərkəzində «Azərbaycanda multikulturalizmin gənclər arasında təbliği» mövzusunda konfrans keçirilib. Siyəzən rayon Gənclər və İdman idarəsi tərəfindən təşkil olunan tədbirdə rayon ictimaiyyətinin, bir sıra idarə, müəssisə və təşkilatların nümayəndələri ilə yanaşı, fəal gənclər də iştirak edib.



Vüsal Alışov Azərbaycanda çoxəsrlik multikultural ənənələrin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və təbliği üçün 2016-cı ilin «Multikulturalizm ili» elan edildiyini bildirib. Dövlət tərəfindən həmin istiqamətdə aparılan siyasət barədə konfrans iştirakçılarına məlumat verib.

Tədbirdə həmçinin, Rayon Mədəniyyət Mərkəzinin direktoru Ziyada Dadaşova, rus icmasının sədri Xolyavko Elina Aleksandrovna, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Quba bölgəsinin Siyəzən üzrə nümayəndəsi Aqil Əlisoy və başqaları çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, multikulturalizm əslində Azərbaycan xalqının həyat tərzidir. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük. başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verib.

Dövlət başçısı İlham Əliyevin 2016-cı ili Azərbaycanda «Multikulturalizm ili» elan etməsi bir çox amillərdən qaynaqlanır. Belə ki, Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. Ölkəmizdə heç vaxt istər dini, istərsə də etnik zəmində qarşıdurma olmayıb və bu proses indi də uğurla davam etdirilir. Multikulturalizm bir siyasət kimi öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlıdır. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur.

Çıxışlardan sonra tədbir dəyirmi masa ətrafında diskussiya şəklində davam etdirilib. Konfransda iştirak edən gənclər mövzu barədə öz fikirlərini bildiriblər.

**Vüsal Alışov,**
**Gənclər və İdman idarəsinin rəis müavini.**

## Tələbə adınız mübarək!
## ƏN YÜKSƏK NƏTİCƏ

Yayın qaynar istisindəki gərgin imtahan həyəcanını arxada qoyub tələbə adını qazananlar sırasında siyəzənli gənclərimiz də az deyildir.

Bu yazımızda da sizə onlardan biri haqqında söhbət açacağıq. Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbin məzunu Rövşən Elyar oğlu Hüseynov qəbul imtahanlarında 690 bal toplayaraq hamını sevindirmişdir. Bu sevincdən hamıya pay düşür: onun əməksevərliyi, öyrənmək həvəsi barədə ağızdolusu danışan müəllimlərinə də, övladlarının uğuruna hər zaman əminliklərini bildirən valideynlərinə də.

Rövşən Hüseynovun bitirdiyi XI «a» sinfinin rəhbəri Şəhla Nadirova bizimlə söhbətində bildirdi ki, bu nəticə bizimçün gözlənilməz olmadı. Rövşən nəinki oxuduğu sinfin, bütünlüklə məktəbimizin seçilən, nümunə göstərilən şagirdlərindən idi. Hələ aşağı siniflərdən bu oğlandakı intizam, dəqiqlik, biliyə sonsuz maraq, öz üzərində işləmək bacarığı bizi heyran edirdi. Çəkdiyi zəhmət nəticəsiz qalmadı. 690 bal, əlbəttə, olduqca yüksək uğurdur və bütün məktəbimiz bununla fəxr edir.

Respublikanın Əməkdar müəllimi Fəxrəddin İsmayılov da Rövşənin uğurunda ən başlıcası onun əməksevərliyinin böyük rol oynadığını təsdiqlədi.

Ümumiyyətlə, XI «a» sinfinin məzunlarından 19 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmişdir. Onlardan 12 nəfəri ölkənin müxtəlif ali təhsil ocaqlarına daxil olmuşdur. Qalanlar isə texnikumlarda təhsil alacaqlar.

Şəhla müəllimə həmin sinfin məzunu Kamran Babayevin adını da xüsusi fərəhlə vurğuladı. Belə ki, Kamran da qəbul imtahanlarında yüksək nəticə qazanmışdır: 603 bal.

Nəinki rayonumuzda, eləcə də şimal bölgəsində nümunəvi təhsili, gözəl ənənələri ilə seçilən 1 saylı tam orta məktəbin daha bir məzunu Ülviyyə Hüseynova da 638 balla tələbə adını qazanmışdır.

Asayişin keşikçisi olmaq kimi şərəfli arzusuna qovuşan, təhsil almaq üçün Polis Akademiyasını seçən Rövşən Hüseynovun uğurlarına sevinir, onu təbrik edirik. İnanırıq ki, o, tələbəlik illərində də yüksək təhsili, nümunəvi davranışı ilə seçiləcəkdir.

**R. MURADOVA.**

## DAMA BİRİNCİLİYİ KEÇİRİLMİŞDİR

18-19 avqust 2016-cı il tarixlərdə Gənclər Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş 10-14 yaşlı yeniyetmələr arasında Dama üzrə rayon birinciliyi yarışları keçirilmişdir.

Olimpiya sistemi üzrə rayon Gənclər və İdman idarəsi tərəfindən təşkil olunan birincilikdə 30 yeniyetmə qalib adı uğrunda mübarizə aparıb. Yarış yeniyetmələrin vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəsinin gücləndirilməsi, dama oyununa yeniyetmələrin marağının artırılması və onların asudə vaxtlarının səmərəli təşkil olunması məqsədi daşıyıb.

Yarışda Cəfərov Anar I yeri tutaraq, rayon birinciliyinin qalibi olub. Əhmədov Rüstəm və Müzəffərzadə Şahsuvar isə II və III yerləri bölüşdürüblər. Tədbirin sonunda I, II və III yerlərin sahiblərinə idarə tərəfindən fəxri fərmanlar verilib.

**Nadir Məmmədov,**
**Gənclər və İdman idarəsinin rəisi.**

## ZONA MƏRHƏLƏSİ KEÇİRİLMİŞDİR

24 avqust 2016-cı il tarixdə Quba şəhərində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Kiberidman Federasiyası və Kompyuter Oyunları Milli Assosasiyası tərəfindən gənclər arasında kompyuter oyunları üzrə Azərbaycan Milli Çempionatının zona mərhələsi keçirilmişdir.

Yarışda Məcidov Elmir «Super Street Fighter V», Ağadadaşov Eybulla isə «FİFA 2016» fərdi oyunları üzrə I yeri tutaraq, çempionatın bu ilin sentyabrında Bakı şəhərində təşkil olunacaq final mərhələsinə vəsiqə qazanmışlar.

**Nadir Məmmədov,**
**Gənclər və İdman İdarəsinin rəisi.**

## XEYİRXAHLIQ

Vaxtaşırı qanvermə aksiyalarının keçirilməsi ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da artıq ənənə halını almışdır. Biləndə ki, sənin verdiyin qan hansısa yaralı, yaxud xəstənin həyata dönməsində, yaxud sağalmasında əvəzsiz rol oynayıb, onda bu işin necə də böyük savab, xeyirxahlıq olduğunu dərindən dərk edirsən.

Fərəhli haldır ki, bu cür aksiyalara qoşulanların sayı ilbəil artmaqdadır. Sentyabr ayının 1-də rayonumuzda keçirilmiş növbəti qanvermədə biz bir daha bunun şahidi olduq.

Həmin gün xeyli sakin Siyəzən rayon Mərkəzi Poliklinikasına gələrək aksiyada iştirak etmək istəyini bildirmişdir. 140 nəfərdən artıq şəxs qanvermə aksiyasında iştirak etmişdir. Adı səkilən səhiyyə müəssisəsindən verilən məlumata görə, bu rəqəm ötən illərlə müqayisədə ən yüksək nəticədir.

**«ÇIRAQ»**

## RAYON ÇEMPİONATI

Gənclər Mərkəzində «Beynəlxalq gənclər günü» münasibəti ilə gənclər arasında «Nə? Harada? Nə zaman?» İntellektual Oyunu üzrə rayon çempionatı təşkil olunub. Siyəzən rayon Gənclər Birliyi tərəfindən keçirilən yarışın əsas məqsədi intellektual oyunların gənclər arasında təbliği, gənclərin intellektual istiqamətli yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün əlverişli şəraitin yaradılması və intellektual potensialının üzə çıxarılması, intellektual yarışların keçirilməsində yeni üsulların tətbiqi, həmçinin gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi idi. Çempionatda ümumlikdə 9 komanda iştirak edib. Yarış ərzində gənclərdən ibarət komandalar dünyagörüşü və bilik səviyyəsinin yoxlanılmasına, eləcə də intellektual bacarıqlarını nümayiş etdirməyə yönəlmiş 24 sualı cavablandırmağa çalışıblar. Gərgin keçən oyunun yekununda «Zəka» komandası 18 xalla I yeri tuturaq, «Nə? Harada? Nə zaman?» İntellektual Oyunu üzrə gənclər arasında rayon çempionatının qalibi adını qazanıb. «2015» komandası yarış ikincisi olub. «Kelbik» komandası isə çempionatı üçüncü yerdə başa vurub.



Sonda yer tutmuş komandalar yarış təşkilatçıları tərəfindən kubok və fəxri fərmanlarla mükafatlandırılıblar.

**Nuran Nurullayev,**
**Gənclər və İdman idarəsinin aparıcı-məsləhətçisi.**

## MARAQLA QARŞILANMIŞDIR

Siyəzən rayon Heydər Əliyev Mərkəzində «Balaca əllərin böyük işləri» uşaqların əl işlərindən ibarət sərgi keçirilib.



Sərgidə ümumilikdə 40 nəfər iştirak edib. Tədbiri giriş sözü ilə Siyəzən rayon Heydər Əliyev Mərkəzinin direktoru Ramilə Seyidova açmışdır. O, rəsm dərnəyinin balaca fidanlarını bu sərginin təşkil olunması ilə əlaqədar təbrik edərək onlara gələcəkdə daha da böyük uğurlar diləyib.

Sonra söz balaca rəssamların üzərində böyük əməyi olan həmyerlimiz, gənc rəssam Pəri Mirzəyevaya verilib. O, balacaların əl işlərində mövzu rəngarəngliyini, rənglərin düzgün seçimini xüsusi vurğulayıb.

Sonda tədbir iştirakçıları sərgidəki əl işlərinə baxıb, təəssüratlarını bölüşüblər.

**«ÇIRAQ»**

## MƏKTƏBƏHAZIRLIQ TƏLİMLƏRİ KEÇİRİLMİŞDİR

«Sosial Dayaq» İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Siyəzən rayonunda «Az təminatlı və əlil uşağı olan ailələrin məktəbəqədər təhsil müəssisələrinə getməyən beşyaşlı uşaqları üçün məktəbə hazırlığın təşkili» layihəsini həyata keçirmişdir. Layihə çərçivəsində az təminatlı və əlil uşağı olan ailələrin uşaqlarına məktəbəhazırlıq təlimləri keçirilmişdir.

Təlimlər təcrübəli müəllimlər tərəfindən aparılmışdır. Bu layihədə fəaliyyət göstərən müəllimlər üçün xüsusi Beynəlxalq hazırlıq proqramı əsasında fərqli təlimlər «Təhsildə müasir internet texnologiyalarını tətbiq etməklə məktəbəhazırlığın inkişaf etdirilməsi təlim modulu əsasında» təhsil eksperti Ramil Süleymanov tərəfindən aparılmışdır.

Təlimlərdə «Sosial Dayaq» IB-nin işçiləri və üzvləri iştirak edirlər. Təlimlər prosesində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə əməkdaşlıq edilir, əldə edilmiş təcrübədən istifadə olunur. Təlimlər zamanı uşaqlara təhlükəsizlik qaydalarına əməl etməyi, nitqi dinləyib anlamağı və nitq etiketlərindən istifadə etməyi, sadə riyazi əməliyyatları yerinə yetirməyi və s. öyrədilir. Həmçinin təlimdə iştirak edən uşaqların valideynləri də maarifləndirilir.

«Sosial Dayaq» İB üzvlərinin əvvəlki illərdə həyata keçirilən əlilliyə erkən yardım proqramında əldə etdiyi təcrübədən istifadə olunur. Təlimlər zamanı valideynlərə uşaqların inkişafı üçün nələr etmək və hansı vəsaitlərdən istifadə etmək tövsiyə olunur.

**Qərənfil Niftəliyeva,**
**Layihənin rəhbəri.**

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri,
Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 2563
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AiiB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83